UOT-811.512-162
Səhifə: 153-159
https://doi.org/10.59849/2663-8967.2026.2.153

Fəridə Heybətova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
faridaheybatova@gmail.com

C.MƏMMƏDQULUZADƏNİN BƏDİİ DİLİNDƏ İŞLƏNƏN DİALEKTİZMLƏRDƏ SAMİT ƏVƏZLƏNMƏLƏRİ

XÜLASƏ

Məqalədə görkəmli yazıçı C.Məmmədquluzadənin bədii və publisistik irsində işlədilən fonetik dialektizmlərin linqvistik təhlili aparılır. Tədqiqatda əsas diqqət səs əvəzlənmələri hadisəsinə, xüsusilə sözün əvvəlində və ortasında özünü göstərən samit əvəzlənmələrinə yönəldilmişdir. Bu fonetik xüsusiyyətlər təkcə dialektoloji deyil, həm də bədii-estetik funksiya daşıdığı, personajların nitqini fərdiləşdirmək və xalq danışıq dilinin rəngarəngliyini əks etdirmək məqsədi daşıyır. Məqalədə samit əvəzlənmələrinin baş vermə şərtləri də linqvistik qanunauyğunluqlar çərçivəsində izah edilir.

Açar sözlər: *C.Məmmədquluzadə, fonetik dialektizmlər, samit əvəzlənmələri.*

Giriş: Cəlil Məmmədquluzadənin yaradıcılığında xalq danışıq dilinin əsasında ədəbi dilin formalaşması meyli açıq-aşkar görünməkdədir. Bu baxımdan həm Azərbaycan ədəbi dilini zənginləşdirən, həm də xalq danışıq dilinin zəngin faktlarını özündə yaşadan və ya onların qorunub gələcək nəsillərə ötürülməsinə vəsilə olan C.Məmmədquluzadənin bədii əsərləri Azərbaycan ədəbi dili tarixində ayrıca bir mərhələni şərtləndirir. Belə ki, sənətkarın bədii dili klassik ənənələr ilə canlı xalq danışığı arasında möhkəm bir körpü rolunu oynayaraq həmin dövrün dil mənzərəsini bütün dolğunluğu ilə özündə əks etdirir. Elə bu səbəbdən də ədibin əsərlərində işlənən dialektizmlərin dilçilik nöqteyi-nəzərdən tədqiq edilməsi, xüsusilə də fonetik səviyyəyə aid samit əvəzlənmələrinin öyrənilməsi çox aktualdır. Yəni ki belə samit əvəzlənmələri təkcə təsadüfi nitq faktları deyildir, onlar müəyyən bir regionun, əsasən də ədibin təmsil olunduğu Naxçıvan dialektlərinin fonetik qanunauyğunluqlarının bədii mətndə canlandırılması və obrazların fərdi xüsusiyyətlərini özündə ehtiva edən mühüm dil faktlarıdır.

Cəlil Məmmədquluzadənin bədii və publisistik irsində samit əvəzlənmələri səs əvəzlənməsi hadisəsinin ikinci qolunu təşkil edir. Müəllifin dilində samit əvəzlənmələri, onun əsərlərinin fonetik mənzərəsini xalq danışıq dilinin müxtəlif variantları ilə zənginləşdirən əsas göstəricilərindən biri hesab olunur. Bu fonetik hadisə dialektoloji diferensiasiyanı təmin etməklə yanaşı, müəllif tərəfindən bədii məqsədlə – obrazların sosial-linqvistik portretinin yaradılması və nitqin fərdiləşməsi üçün istifadə edilmişdir. Ədibin yaradıcılığında bu fonetik hadisəyə müxtəlif formalarda sözün əvvəlində, ortasında və sonunda rast gəlmək mümkündür. Bu barədə İ.M.Bayramov belə yazır: "*Azərbaycan dili şivələrində samitlərin əvəzlənməsi əsas fonetik hadisələrdəndir. Samitlərin əvəzlənməsində karlaşma və ya cingiltiləşmə baş verir. Samitlərin əvəzlənməsi kar samitlərin cingiltili samitləri, cingiltili samitlərin kar samitləri, cingiltili samitlərin cingiltili samitləri, kar samitlərin kar samitləri əvəz etməsində müşahidə olunur*" [1, s. 101]. Verilən sitata əsaslanmaqla C.Məmmədquluzadənin bədii irsində mövcud olan samit əvəzlənmələrini aşağıdakı kimi qruplaşdırmağı məqsədəmüvafiq sayırıq.

Cingiltili samitlərin kar samitlərlə əvəz olunması. C.Məmmədquluzadənin bədii dilində rast gəlinən fonetik dialektizm formalarından biri olan cingiltili samitlərin kar qarşılıqları ilə əvəzlənməsi hadisəsi daha çox diqqət çəkir. Bu proses digər dialektlərdə sözün müxtəlif yerlərində mümkün olursa da, ədibin dilində işlənən dialektizmlərə əsaslanaraq, demək olar ki, burada həmin əvəzlənmə təkcə sözün əvvəlində və ortasında özünü göstərir (Nadir hallarda sözün sonunda da

ola bilir). Onu da deyək ki, cingiltililiyin itməsi və ya karlaşma kimi dəyərləndirilə bilən belə fonetik dəyişmə tələffüz fərqliliyi yaratmaqla bərabər, həm də obrazın sosial mənşəyini və aid olduğu canlı danışıq-dialekt mühitini dəqiq əks etdirən mühüm dil özünəməxsusluğudur.

Ədibin əsərlərinin dilini bu yöndən araşdırarkən b>p, g>k, g>x, n>k, d>t, c>ş və s. kimi samit əvəzlənmələrinə aid fonetik dialektizmlərə rast gəldik. Bu qəbildən olan samit əvəzlənmələri ədəbi dilin orfoepik normalarından uyğun olmasa da, xalq danışıq dilinin təbiiliyini bədii əsərdə qoruyub saxlaya bilir. Aşağıda həmin əvəzlənmə formalarına nəzər salaq.

B>p. M.Ə.Məmmədli samit dəyişmələrindən bəhs edərkən qeyd edir ki, *"Şivələrdə geniş yayılmış fonetik xüsusiyyətlərdən biri də samitlərin dəyişməsidir. Samitlərin dəyişməsi nəticəsində karlaşma, cingiltiləşmə, kipləşmə, novlaşma, affrikatlaşma, qeyri-palatallıq hadisələri meydana çıxır. Samit dəyişmələri söz əvvəlində, ortasında və sonunda özünü göstərir b>p keçidi cənub şivələrininin səciyyəvi xüsusiyyətidir. Bu hadisə qərb və şimal-şərq şivələrində də yayılmışdır; məs.: putax//pıtax, pıçax/ puçax, piçin, pişirməx`, pükməx`, pütün, pürkü, pirqədir (Nax., Şr.), palta, pes (B.), puxarı, pütün, pütöy, piçməx`, pitməx`, puxça, pişirer (Qaz., Bor.) və s*" (2, s. 71-72). *B* səsinin *p* səsi ilə əvəzlənməsi hadisəsi müəllifin yaradıcılığında sözün əvvəlində "bişmək>pişmək", "bıçaq>pıçaq" formalarında təzahür edir. Məs.: "*Elə söz danışırsan ki,* ***pişmiş*** *toyuğun gülməyi gəlir*" [3, s. 146]; "*Bu saat gərək sənə qayqanaq* ***pişirtdirim***" [3, s. 238]; "*Hələ sən kömürü və təbaşiri deyirsən, mən elə pis uşaq görmüşəm ki, əlinə mismarı ya* ***pıçağı*** *alıb, divaraları cızıb xarab eləyir*" [3, s. 264]. Qeyd edək ki, bu əvəzlənmələr zamanı həmin samitlərdən əvvəl qapalı saitlərin işləndiyinin şahidi oluruq. A.Vəliyev də bu qənaətdədir: "*Bu hadisə sözün əvvəlində çox zaman qapalı saitdən (ı, i, u) qabaq birinci qapalı hecanın sonunda və ya ikinci hecanın əvvəlində kar samitlərdən (t, ç, ş, x) irəli müşahidə edilir, bəzi cingiltilərdən (sonor) əvvəl də gələ bilir*" [4, s. 147]. Deməli, sənətkarın əsərlərindən seçilmiş nümunələrdə də b>p əvəzlənməsinin, əsasən, qapalı saitdən əvvəl, sözün birinci hecasında baş verdiyini görsək də, belə əvəzlənməyə ədibin "Çay dəsgahı" mənzum dramının dilində açıq saitdən əvvəl də rast gəldik: "bəs>pəs". Məs.:

"*Ağanın beylə* ***pəs*** *tutub qeyzi-*
Ki, buyurdu bu gün qırsınlar bizi" [3, s. 357].

G>k. Bu əvəzlənməyə C.Məmmədquluzadənin əsərlərində yalnız gah>kəh sözündə rast gəldik:

"*Kəh* *yanını ver balışə,* ***gəh*** *çıx günə ver də,*
Çək kürkün əhvəcin başa donbal ağarıbdır" [5, s. 116].

Göründüyü kimi, qeyd olunan nümunənin içində eyni bir sözün "gəh" və "kəh" şivə çalarları paralel şəkildə işlədilmişdir.

G>x. "G" səsinin "x" səsi ilə əvəzlənməsinə bölüşdürmə mənalı "gah>xah" bağlayıcısının fonetik tərkibində rast gəlinir. Məs.: "*Dünyada çox arvadların başmaqları düşüb,* ***xah*** *at üstə gedən vaxt,* ***xah*** *arabadan ya faytondan,* ***xah*** *dəmir yol ilə gedəndə*" [3, s. 171]. Göründüyü kimi, bu əvəzlənmə də çox az işlənir.

N>k. C.Məmmədquluzadənin yaradıcılığında istifadə olunmuş dialektizmlərin fonetik cildində az hallarda təzahür edən əvəzlənmələrdən biri də "n" səsinin "k" səsi ilə əvəzlənməsidir. Bu hadisə "görünür>görükür" fonetik dialektizmində özünü büruzə verir. Məs.: "*Mən sənə dedim: "****Görükür*** *ki, çox pulun var*" [5, s. 182].

D>t. Ədibin əsərlərinin dilində rast gəlinən samit əvəzlənmələrindən biri də d>t əvəzlənməsidir. Bu əvəzlənmə həm də Azərbaycan ədəbi tələffüzündə və digər dialektlərdə də mövcuddur. M.Şirəliyev bu barədə belə qənaətə gəlir ki, "***D*** *səsinin* ***t*** *səsi ilə əvəzlənməsi hadisəsi, demək olar ki, bütün dialekt və şivələrimizdə az və ya çox dərəcədə yayılmışdır. Bu hadisəyə daha çox qərb, şimal və cənub dialekt və şivələrində, az halda isə şərq dialekt və şivələrində rast gəlmək mümkündür. ...Qeyd etmək lazımdır ki,* ***d>t*** *hadisəsi samitlə başlayan şəkilçilər qarşısında özünü göstərir; saitlə başlayan şəkilçilər qarşısında isə bu hadisə baş vermir; məs.; bulut – bulutda, bulutdan, buludun, buluda, buludu; qurt – qurtda, qurtdan, qurdun, qurda, qurdu və s.*" [6, s. 90]. A.Vəliyevin bu məsələyə yanaşması isə belədir: "*Əsasən, öz sözlərimizdə təsadüf olunan bu əvəzlənməyə bəzən alınma sözlər də məruz qalır. Sözün*

*başlanğıcında qapalı **u, ü, i** saitlərindən əvvəl, nadir hallarda isə açıq **a** səsindən qabaq özünü təzahür etdirir...*" [4, s. 151]. Ədibin yaradıcılığında bu əvəzlənmə "padşah – patşah", "qanad – qanat" fonetik dialektizmlərində özünü göstərir. Məs.: "*....Avropa hökumətləri Kriti hazırlaşırlar versinlər Yunan **patşahına** – sultan Əbdülhəmid yunanlı hərəmini yanına çağırıb deyir....*" [5, s. 110]; "*Molla Tarqulu deyir ki, "cinabət qüslinin hər bir zərrəsindən yetmiş iki min mələikə xəlq olunur və bu mələikələr qiyamət günü qüsl sahibini **qanatlarının** üstünə alıb, qalxızacaqlar göylərə və gəzdirəcəklər*" [5, s. 161]. Qeyd edək ki, verilən nümunələrdən birincisi ədəbi dil faktı kimi çıxış edə bilməsə də, ikincisindəki tələffüz həm də ilk baxışda ədəbi dilin ofroepik norması kimi diqqət çəkir. Lakin nəzərə alsaq ki, ədibin dilində işlənən "qanatlarının" ifadəsində "l" samiti yazılışa, "t" samiti isə tələffüzə uyğun şəkildə öz əksini tapır. Buna görə də həmin nümunənin fonetik dialektizm kimi nümunə verilməsi təbii hal hesab edilməlidir.

C>ş. Belə bir əvəzlənmə də ədibin əsərlərinin dilində az rast gəlinən fonetik prosesdir. Bu fikri dialektoloji tədqiqatları zamanı M.Şirəliyev də bütün dialektlərə aid bir fakt kimi qeyd edir: "***Ç** və **c** səslərinin **ş** səsi ilə əvəzlənməsi az təsadüf edilən hadisələrdən sayılır. Bu hadisəyə bir neçə və çox vaxt alınma sözlərdə təsadüf edilmişdir*" [6, s. 85]. "C>ş" hadisəsi haqqında A.Vəliyev isə yazır: "*Əslində ikiqat əvəzlənmə olub, **c→ç, ç→ş** ardıcıllığı üzrə cərəyan edir*" [4, s. 179]. Qeyd olunan əvəzlənmə hadisəsi yazıçının əsərlərinin dilində "bacarmaq>başarmaq" nümunəsində müşahidə edilir. Məs.: "*Doğrusu, biz bir az xamıq və o cür yazmağı **başarmırıq** ki, bir para adam bizdən inciməsin*" [5, s. 155].

Nəhəyət, qeyd edə bilərik ki, Cəlil Məmmədquluzadənin dilində müşahidə olunan cingiltili samitlərin karlaşması hadisəsi həm fonetik, həm də üslubi baxımdan sistemli xarakter daşıyır. Bu əvəzlənmələr ədibin müraciət etdiyi şivələrin daxili inkişaf qanunauyğunluqlarını əks etdirməklə yanaşı, bədii mətndə canlı xalq dilinin fonetik mənzərəsini əks etdirir. Sənətkarın əsərlərindən seçilmiş nümunələrin təhlili göstərir ki, bu proses təsadüfi deyil və ədibin dilin emosional-ekspressiv imkanlarından istifadə məharətinin göstəricisidir.

Cingiltili samitlərin cingiltili samitlə əvəzlənməsi. C.Məmmədquluzadənin bədii dilində rast gəlinən samit əvəzlənmələrinin digər bir təzahür forması isə eyni məxrəcli və ya yaxın tələffüz xüsusiyyətlərinə malik olan cingiltili samitlərin bir-birini əvəz etməsi hadisəsidir. Ədibin əsərlərindən v>b, g>y, y>g, q>ğ, ğ>q, c>j, v>y, r>l, r>n, n>m kimi samit əvəzlənmələrinə aid konkret nümunələr seçə bildik. Həmin nümunələrə müvafiq bəndlər üzrə nəzər salaq.

V>b. A.Vəliyevin də qeyd etdiyi kimi, "*V-b əvəzlənməsi sözün başlanğıcında və söz ortasında saitlər əhatəsində və ya sonor samitdən sonra və saitdən əvvəl müşahidə edilir*" [4, s. 171]. Söz ortasında baş verən fonetik hadisələrdən olan *v* samitinin *b* samiti ilə əvəzlənməsi, əsasən, şərq qrupu dialekt və şivələrinə xas olan bir xüsusiyyətdir. Qeyd olunan fonetik hadisəyə C.Məmmədquluzadənin əsərlərində az hallarda təsadüf edilir. Məs.: "*Muğdusi Akop kiçik oğlu ilə həyətdən **nərdibanı** gətirib qoydu otağa*" [3, s. 141]; "*Bir parası da taxçanın bucağından bir tikə pəndir qırığı, quru çörək xırdası, ya heç olmasa ölüşkəmiş alma və ya qovun qabığı, qarpız toxumu tapıb tələsik basırlar ciblərinə və başlayırlar **aftabanı** axtarmağa*" [5, s. 87] və s.

G>y. Müəllifin yaradıcılığında g>y əvəzlənməsinə "nigaran>niyaran", "məgər>məyə", "şagird>şəyird" nümunələrində söz ortasında təsadüf edilir. Məs.: "*-Ay ağa, nə gec gəldin? Xanım səndən ötrü **niyaran** oldu*" [3, s. 187]; "***Məyə,** görmürsən qonaqlar başını necı qatıbdırlar?*" [3, s. 197]; "*Bir saatdan sonra Usta Zeynal **şəyirdi** Qurbanla Muğdusi Akopun evində hazır oldu və əlindəki xurcunu balkona qoyub girdi otağa və başını yuxarı qalxızıb, üzünü tutdu Muğdusi Akopa..*" [3, s. 140].

Y>g. Ədibin əsərlərində bəzən yuxarıda qeyd olunmuş fonetik hadisənin əksinə – "y" səsinin "g" səsi ilə əvəzlənməsi hadisəsinə də rast gəlinir. Məs.:

"*Gər başın **əgib** peysərinə dursala, dinmə,*
Pamal edə düşmən səni səbr et, bala, dinmə.." [3, s. 611].

Müəllifin nəzm əsərlərinin dilindən seçilmiş nümunədə y>g hadisəsi sözə şəkilçi qoşulduğu zaman söz kökünün sonunda baş verir.

Q>ğ. C.Məmmədquluzadənin əsərlərindən seçilmiş fonetik dialektizmlərdə q>ğ əvəzlənməsinə sözün həm əvvəlində (qubernat>ğoburnat), həm ortasında (manqal>manğal,

siqar>siğar), həm də sonunda (ulaq>ulağ, çıraq>çırağ) rast gəlinir. Məs.: "*Nə xəbərdi? Deyirlər kəndə* ***ğoburnat*** *gəlib?*" [3, s. 483]; "*Qış fəsli məscidin qabağından keçəndə görürsən ki, Məşədi Molla Həsən əbaya bürünüb və qabağına bir* ***manğal*** *qoyub, əyilib az qalır manğalı qucaqlasın*" [3, s. 151]; "*Naçalnik* ***siğarı*** *damağına salıb, üzünü tutdu pristavın xanımına..* [3, s. 185]; *Bir saatdan sonra həyətə bir yüklü* ***ulağ*** *girdi. Üstü-başı gəclə tozlanmış* ***ulağçı,*** *ustanın şəyirdi, hərəsi bir tərəfdən yükün çuvallarını qucaqlayıb, ulağın üstündən götürüb gətirdilər otağa və gəci boşaltdılar yerə*" [3, s. 141]; "*Bazarda hansı mətaın qiyməti dövlət tərəfindən ucuzlaşsa, bu məta satılan dükanda gündüz* ***çırağ*** *yandırarlar*" [5, s. 350]. Müəllifin əsərlərində "*ğoburnat*" dialektizminin "*qoburnat*" variantına da rast gəlinir. Məs.: "*Doğrudu, kəndə nəçərnik də gəlib, silistçi də gəlib, liğər də gəlib, qazı da gəlib, bəlkə* ***qoburnat*** *da gəlibdi; amma nəinki hamısı birdən*" [3, s. 215]. Qeyd olunmuş samit əvəzlənməsi hadisəsinin bəzi toponimlərdə (Əfqanıstan>Əfğanıstan, Bolqarıstan>Bolğariya) də baş verdiyinin şahidi oluruq. Məs.: "*Vəqta ki mən* ***Əfğanıstandan*** *qaçıb Əmiri-Buxaraya pənah apardım, əmirin gözü mənim yanımda olan bir gözəl oğlana düşdü, istədi onu mənim əlimdən alsın*" [5, s. 344]; "*Qəzetələr yazırlar ki,* ***Bolğariyanın*** *istiqlaliyyətini ingilis hökuməti təsdiq eləmək istəmir*" [5, s. 324].

Ğ>q. "***Ğ*** *səsinin* ***q*** *səsi ilə əvəzlənməsi bir o qədər yayılmış hadisələrdən deyildir. Bu hadisəyə əsasən Naxçıvan dialekt və şivələrində bir neçə sözdə təsadüf edilmişdir*" [6, s. 87]. Ədibin əsərlərində az rast gəlinən "ğ" samitinin "q" samiti ilə əvəzlənməsini "qayğanaq>qanqanaq", "qovğa>qovqa", "nağd>nəqd" nümunəsində söz ortasında izləyə bilirik. Məs.: "*Bu saat gərək sənə* ***qayqanaq*** *pişirtdirim*" [3, s. 238]; "*Xeyr, saydığımız on iki adamdan savayı dəxi Təbrizdə bir adam tapılmaz ki, buna razı olsun. Bəs bu nə* ***qovqadır?"*** [5, s. 287]; "*Amma bu kişi* ***nəqd*** *adamdı.Ata da yaxşı qiymət verir*" [5, s. 280].

C>j. "***C*** *səsinin* ***j*** *səsi ilə əvəzlənməsi hadisəsi qərb dialekt və şivələrinin əsas xüsusiyyətlərindən birini təşkil edir. Bu hadisəyə əsasən iki sait arasında təsadüf edilir*" [6, s. 85]. E.Əzizov isə belə yazır: "*c səsinin j səsinə keçidi Azərbaycan dilinin dialekt fonetikasında meydana çıxmış mühüm innovasiyalardan biridir. Söz ortasında və təkhecalı sözlərin sonunda özünü göstərən bu hadisə (bajı, gələjəm, gej) qərb şivələrinin əsas əlamətlərindəndir. Azərbaycan dilinin şimal-şərq və cənub şivələrində də bu xüsusiyyətə təsadüf edilir. J-laşmaya səbəb qovuşuq c səsinin bəsitləşməsi və novlaşmasıdır*" [7, s. 106]. Ədibin yaradıcılığında qeyd olunan fonetik hadisəyə "ac>aj", "balaca>balaja", "biclik>bijlik" dialektizmlərinin fonetik tərkibində rast gəlinir. Məs.: "*Bunların hamısını tərəziyə qoyub, öz xəyalında samballayandan sonra Əkbər Qurbanov yoldaş bu əqidədə qərar tutur ki, şura sədri olmaq hər cür əkinçilikdən mənfəətlidir: nə afət və bəlası var, nə naloq-maloğu var, nə yanğısı və nə də həftələrlə növbəyə durub,* ***aj*** *heyvanların dərdini çəkmək var ki, görüm nə vaxt mənə bu növbə çatacaq ki, pambığımı qapana qoysunlar, növlərə (sortlara) ayırsınlar, ağırı yüngül çəksinlər, yüngülü ağır çəksinlər*" [3, s. 299]; "*Uşağın* ***balaja*** *olmağının bura nə dəxli var?!*" [3, s. 300]. Müəllifin eyni əsərində "aj" dialektizminin paralel olaraq ədəbi dil variantının da işləndiyinin şahidi oluruq. Məs.: "*Nə vaxt kefləri istədikdə məni və* ***ac*** *heyvanlarımı yola salsınlar*" [3, s. 299]; "*....ondan ötrü ki, müsəlman ədibi və mühərriri əlinə qələmi götürəndə bir böyük və nüfuzlu adamın barəsində mədh və səna yazmasa, yəqin ki,* ***bijdi*** *və atasından-anasından xəbəri yoxdu*" [5, s. 133].

V>y. "***V*** *səsinin* ***y*** *səsi ilə əvəzlənməsi hadisəsi əsasən Qazax dialektinə aid bir xüsusiyyətdir ki, açıq dodaq saitlərindən sonra özünü göstərir. toyla<tovla, döylət, öylət, qoyla<qovla, söyün<sevin...*" [6, s. 86]. C.Məmmədquluzadənin felyetonlarının birində bu hadisə "tövlə>töylə" formasında özünü göstərir. Məs.: "*Ədə, Həsənəli, naxır gəlir, qaç* ***töylənin*** *qapısını aç, heyvanlar gəlib həyətə girməsinlər və həyət-bacanı zibilləməsinlər*" [5, s. 336].

Burada onu da qeyd edək ki, C.Məmmədquluzadənin yaradıcılığında istifadə olunmuş fonetik dialektizmlərdə sonor səslərin bir-birini əvəz etməsi hallarına da rast gəlinir: r>l, r>n, n>m. Sonor samitlərin bir-biri ilə əvəzlənməsi haqqında A.Vəliyev qeyd etmişdir: "*Başlıca olaraq, kombinator hadisələrlə bağlı olan bu növ əvəzlənmələr söz köklərində, eləcə də şəkilçi əlavə edildikdə özünü təzahür etdirir*" [4, s. 181]. Elə ədibin əsərlərindən seçilən nümunələrdə də bu xüsusiyyət özünü göstərməkdədir. Sənətkarın əsərlərində işlənən belə sonor samitlərin bir-biri ilə əvəzlənməsi hallarını ayrılıqda nəzərdən keçirək.

R>l. Geniş yayılmamış hadisələrdən olan "r" sonorunun digər bir sonorla – "l" səsi ilə əvəzlənməsinə, əsasən, müəllifin mənsub olduğu "*Naxçıvan dialekt və şivələrində və Qazax dialektində təsadüf edilmişdir*" [6, s. 87]. Ədibin felyetonlarının birində bu əvəzlənmə "xəncər>xəncəl" formasında özünü büruzə verir: "*On beş yaşlı oğlan elə bunu eşidən kimi əl (atdı)* ***xəncələ*** *ki, ədə, mən nə vaxt indiyə kimi verdiyim vədədən çevrilmişəm ki, mənə o adı qoyursan?*" [5, s. 253].

R>n. Dialekt və şivə qrupları arasında az təsadüf edilən hadisələrdən olan "r" sonor səsinin digər bir sonorla – "n" səsi ilə əvəzlənməsi hadisəsini C.Məmmədquluzadənin əsərlərinin dilində "bilmənəm" sözündə müşahidə edirik. Məs.: "*Naxoş yalandan cavab verir ki, yeyə* ***bilmənəm,*** *orucam*" [5, s. 88].

N>m. Azərbaycan dilinin fonetik sistemində həm ədəbi dildə, həm də dialekt və şivələrdə özünü göstərən maraqlı hadisələrdən biri də n > m əvəzlənməsidir. "*Bu hadisə söz köklərində ortada və ən axırda özünü göstərir. İstər öz sözlərimizdə və bir sıra alınma sözlərdə müşahidə edilmişdir. Bundan başqa, şəkilçi artırıldıqda kombinator hadisələr törənməsi nəticəsində həmin əvəzlənmə üçün əlverişli şərait yaranır*" [4, s. 181]. "***N*** *səsinin* ***m*** *səsi ilə əvəzlənməsi də az təsadüf edilən hadisələrdəndir. Bu hadisə bir neçə sözdə müşahidə edilmişdir; məs.: çamta, qomur (Muğ.) <qonur*" [6, s. 88]. A.Vəliyevin qeyd etdiyi kimi, bu hadisə çox vaxt "əlverişli şərait" yarandıqda baş verir: n samitindən sonra b, m samitləri gələndə tələffüz asanlığı üçün n səsi m səsinə keçir. Lakin C.Məmmədquluzadənin əsərlərində bu deyilənə uyğun variantlara deyil, söz sonunda işlənənin şahidi olduq. M.Şirəliyevdən gətirilən istinaddan da göründüyü kimi, dialektlərdə az təsadüf edilən belə əvəzlənməyə C.Məmmədquluzadənin əsərlərində də çox az rast gəlinir. Araşdırma zamanı bu qəbildən olan əvəzlənməyə ədibin dilində yalnız "hərdən>hərdəm" formasında rast gəldik. Məs.: "***Hərdəm*** *buna deyirlər: gir yuvana heyvan...*" [5, s. 126]. Yazıçının bu formadan istifadə etməsi xalq dilinə, canlı danışığa və ya konkret bir bölgənin – Naxçıvan dialektinin fonetik xüsusiyyətlərinə sadiqliyini göstərir. Bunu dialektizmlərdən bədii mətndə obrazlılığı və təbiiliyi artırmaq üçün istifadəsinə ən gözəl nümunə hesab etmək olar.

Beləliklə, qeyd edə bilərik ki, cingiltili samitlərin bir-biri ilə əvəzlənməsi hadisəsi ədibin dilində leksik vahidlərin fonetik variantlılığını göstərən dil faktlarıdır. Belə səs keçidləri dilin fonetik sistemindəki dinamikliyi göstərməklə yanaşı, həm də sənətkarın üslubunun xalq dili ilə üzvi bağlılığını bir daha təsdiq etmiş olur.

Kar samitlərin cingiltili samitlərlə əvəzlənməsi

C.Məmmədquluzadənin bədii dilində fonetik sistemin dinamikliyi az da olsa, kar samitlərin cingiltili qarşılıqları ilə əvəzlənməsi hadisəsində də özünü göstərməkdədir. Ədibin dilində bu prosesə aid k>g və k>q formasına rast gəldik.

K>g. M.Şirəliyevin də qeyd etdiyi kimi, "***K*** *səsinin* ***g*** *səsi ilə əvəzlənməsi hadisəsi, ümumiyyətlə, cənub dialekt və şivələrinə aiddir*" [6, s. 80]. C.Məmmədquqluzadənin əsərlərində belə hadisəyə – bu qəbildən olan dialektizmlərə "köynək>göynək/köynəg", "kəskin>kəsgin", "körpü>görpü", "bank>bang" formalarında rast gəlinir. Məs.: "*Bari pərvərdigara! Urusun qılıncını* ***kəsgin*** *elə ki, Allaha şərik qərar verən bütpərəstləri, yəni yaponları bir günün içində qırıb, müzməhill eləsin*" [5, s. 141]; "*Amma məndən savayı da "Daş* ***görpü"****nün üstündə çox adam durur*" [5, s. 194]. "*Hər lütdən bir sap çəksən, köynəkli adama artıq bir* ***göynək*** *də çıxar*" [3, s. 302]. Sonuncu nümunədə eyni cümlənin tərkibində sözün ədəbi dil (köynək) və dialekt variantı (göynək) paralel şəkildə işlənmişdir. Qeyd edək ki, müəllifin əsərlərində "göynək" fonetik dialektizminin "köynəg" formasında da işlədilməsinə təsadüf edilir:

"***Köynəgimdir*** *mənim ya şal, ya ipək,*
Təmiz ollam lətif mərmər tək" [3, s. 361].

Qeyd olunmuş fonetik dialektizm söz sonunda k>g əvəzlənməsi nəticəsində yaranmışdır. Alınma olan "bank" sözündəki [k'] səsinin [g] ilə əvəz olunması nəticəsində yaranmış "bang" fonetik dialektizminə də müəllifin dilində təsadüf edilir: "*...bu bicliklər ilə cəm elədiyi qırx beş min lirə pulu Osmanlı* ***bangına*** *qoyub ki, Məhəmmədəli şaha köməyə gedəndə məşrutəçiləri qırmağa məsrəf eləsin*" [5, s. 407].

K>q. Ədibin əsərlərinin dilində nadir hallarda təsadüf edilən [k'] səsinin [q] səsi ilə əvəzlənməsi hadisəsinə bəzi varvarizmlərin fonetik cildində təsadüf edilir. Məs.: "*Yoxsa Yevropada bir böyük imarəti mətəl eləyirlər və başdan-başa* ***qravat*** *düzürlər və dünyanın zəhərli və acı murdar davalarını gətirib ortaya yığırlar....*" [5, s. 467]. Bu səs əvəzlənməsi ilə bağlı M.Şirəliyev yazır: "***K*** *səsinin* ***q*** *səsi ilə əvəzlənməsi hadisəsinə bir neçə sözdə Naxçıvan vı Qazax dialektlərində təsadüf edilmişdir. Lakin söz başında* ***k*** *səsi əvəzinə* ***q*** *səsini işlətməkdə bu dialektlər arasında fərqlər vardır. Belə ki, Naxçıvan dialektində* ***q*** *səsi önsıra qapalı saitlərdən əvvəl gəlirsə, Qazax dialektində* ***q*** *səsi arxasıra qapalı saitlərdən əvvəl gəlir. ....güçə (Nax.), qişi (Nax.-Q)....*" [6, s. 81]. Göründüyü kimi, ədibin əsərlərindən seçilən nümunələr də məhz Naxçıvan dialektinin xüsusiyyətlərini özündə ehtiva etdirir və ya ona uyğun şəkildə işlənir.

Beləliklə, deyə bilərik ki, kar samitlərin cingiltililəşməsi hadisəsi ədibin dilində dialektal fərqliliyi yaradan əsas fonetik amillərdən biri kimi özünü göstərir. Belə səs keçidləri həm ümumxalq danışıq dilinin tarixi inkişaf meyillərini izləməyə imkan verir, həm də obrazların nitqini reallığa maksimum dərəcədə yaxınlaşdıraraq əsərin bədii-üslubi keyfiyyətini artırmış olur.

Kar samitlərin kar samitlərlə əvəzlənməsi. C.Məmmədquluzadənin bədii irsində eyni məxrəcli və ya tələffüzləri yaxın olan kar samitlərin bir-birini əvəz etməsi də təsadüf edilən hadisələrdəndir. Ədibin bədii dilində bu qəbildən olan ş>ç və p>f əvəzlənmələrinə rast gəlinir.

Ş>ç. Sənətkarın əsərlərində az təsadüf olunan fonetik hadisələrdən olan dilonü kar damaq-diş samitləri "ş" və "ç" səslərinin bir-biri ilə əvəzlənməsi hadisəsinə "yaxşı>yaxçı" ifadəsində təsadüf edilir. Məs.: "*-Xozeyin, nə qədər* ***yaxçı*** *olsa, mən and içə bilərəm ki, bizim oxuyanların xətti kimi ola bilməz*" [3, s. 143]; "*-****Yaxçı****, usta, indi sən bu işi podrata götürmüsən ki, bu gün axşama kimi qurtarasan*" [3, s. 146]. Göründüyü kimi, birinci nümunədə "yaxçı" ifadəsi əsas nitq hissəsi olan sifət məqamında, ikinci nümunədə isə köməkçi nitq hissələrindən olan ümumiləşdirmə mənalı modal söz qismində iştirak etmişdir.

Qeyd olunan samit əvəzlənməsi hadisəsinə bəzi varvarizmlərin fonetik tərkibində də rast gəlinir. Məs.: "*Bax, nəçərnik də gəlib, pristav da gəlib, silisçi də gəlib, spextor da, qazı da...Nə bilim,* ***uçqoldu****-nədi, o da gəlib*" [3, s. 483].

Haqqında danışılan fonetik hadisənin əksi olaraq, "ç>ş" əvəzlənməsinə "uştel" varvarizminin fonetik cildində baş verdiyinin şahidi oluruq: "*Nağıl edirlər ki, Danabaş kəndində şkola müəllimlərindən bir müsəlman* ***uşteli*** *orucluqda günorta vaxtı samovarı stol üstə qoyub, çayı dəmləyib istəyir içsin*" [5, s. 88].

P>f. Dialekt və şivə qrupları arasında az təsadüf edilən hadisələrdən olan "p" səsinin "f" səsi ilə əvəzlənməsi "*əsasən Qazax dialektində bir neçə sözdə kar samitlərdən əvvəl müşahidə edilmişdir..*" [6, s. 83]. Yazıçının "Din" adlı felyetonunda bu əvəzlənmə hadisəsini "tüpürüb>tüfürüb" formasında müşahidə edirik. Məs.: "*Qorxuram* ***tüfürüb*** *qaçalar*" [5, s. 441].

Göründüyü kimi, kar samitlərin bir-biri ilə əvəzlənməsi prosesi ədibin dilində dialektizmlərin fonetik dəyişimi şəkilində diqqətə çatdırılır. Bu hadisə sadəcə fonetik deyil, həm də üslubi funksiya daşıyaraq əsərin yazıldığı dövrün və təsvir olunan mühitin real dil mənzərəsini dolğun şəkildə əks etdirmiş olur.

Nəticə: C.Məmmədquluzadənin bədii yaradıcılığında rast gəlinən samit əvəzlənmələri təsadüfi mahiyyət daşımır. Belə əvəzlənmələr konkret dialekt və şivə qruplarının (Xüsusilə də Naxçıvan dialekt və şivələri) fonetik qanunauyğunluqlarına əsaslanır və müəllif tərəfindən məqsədli şəkildə seçilərək istifadə olunur. Qeyd edilən samit əvəzlənmələri Azərbaycan ədəbi dili, xalq danışıq dili və bədii dil arasındakı qarşılıqlı əlaqəni elmi şəkildə sübuta yetirir. Məqalə C.Məmmədquluzadənin dilinin fonetik xüsusiyyətlərinin hazırlanmasında, eləcə də Azərbaycan dialektologiyasının tarixi inkişafının öyrənilməsində yararlı mənbə kimi istifadə edilə bilər. C.Məmmədquluzadənin bədii dilində samit əvəzlənmələri Azərbaycan dilinin dialektoloji faktlarının nə dərəcədə zəngin olduğunu aşkar edir. Müəllif samit əvəzlənmələrindən istifadə etməklə sadəcə realistik dil mənzərəsi təqdim etməmiş, eyni zamanda yaşadığı dövrün canlı xalq danışıq dilini (ədəbi dilin imkanları ilə) yüksək peşəkarlıqla göstərə bilmişdir. Məqalədə samit əvəzlənmələri ilə bağlı araşdırma sübut edir ki, yazıçının dilindəki hər bir dialekt faktı dəqiq

linqvistik qanunauyğunluqlara əsaslanır və Azərbaycan dialektologiyasının tarixi-müqayisəli metodla öyrənilməsi üçün mühüm qaynaq ola bilər.

Ədəbiyyat siyahısı

1. Bayramov, İ.M. Azərbaycan dialektologiyası. / İ.Bayramov. – Ankara: İksad, – 2022. – 456 s.
2. Məmmədli, M.Ə. Azərbaycan dialektologiyası / M.Ə.Məmmədli. – Bakı: Zərdabi Nəşr MMC, – 2019. – 352 s.
3. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 1. – 2004. – 664 s.
4. Vəliyev, A. Azərbaycan dilinin keçid şivələri / A.Vəliyev. – Bakı: Elm, – 2005. – 335 s.
5. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 2. – 2004. – 664 s.
6. Şirəliyev, M. Azərbaycan dialektologiyasının əsasları / M.Şirəliyev. – Bakı: Şərq-Qərb, – 2008. – 416 s.
7. Əzizov, E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı. Dərs vəsaiti / E.İ.Əzizov. – Bakı: Elm və təhsil, – 2016. – 348 s.

Farida Heybatova

Consonant substitutions in dialectisms used in the artistic language of J.Mammadguluzade

Summary

The article conducts a linguistic analysis of phonetic dialectisms used in the artistic and journalistic heritage of the prominent writer J.Mammadguluzade. The main attention in the study is focused on the phenomenon of sound substitutions, especially consonant substitutions that appear at the beginning and middle of a word. These phonetic features have not only a dialectological, but also an artistic-aesthetic function, which is aimed at individualizing the speech of characters and reflecting the diversity of the popular spoken language. The article also explains the conditions for the occurrence of consonant substitutions within the framework of linguistic regularities.

Key words: *J.Mammadguluzade, phonetic dialectisms, consonant substitutions.*

Фарида Хейбатова

Замены согласных в диалектизмах, используемых в художественном языке Дж.Маммадгулузаде

Резюме

В статье проводится лингвистический анализ фонетических диалектизмов, используемых в художественно-журналистском наследии выдающегося писателя Дж**.**Маммадгулузаде. Основное внимание в исследовании уделяется феномену звуковых замен, особенно замен согласных, появляющихся в начале и середине слова. Эти фонетические особенности имеют не только диалектологическую, но и художественно-эстетическую функцию, направленную на индивидуализацию речи персонажей и отражение многообразия разговорного языка. В статье также объясняются условия возникновения замен согласных в рамках лингвистических закономерностей.

Ключевые слова: *Дж.Маммадгулузаде, фонетические диалектизмы, замены согласных.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***
Rəyçilər: ***dosent K.İmamquliyeva***
dosent G.Binnətova